*Rahibə Əliyeva:*

# Dağlıq Qarabağdakı abidələrdə alban əlifbası ilə olan yazılar erməni vandalları tərəfindən silinib

**Erməni vandalları 30 ildir ki, işğal etdikləri ərazilərdə Azərbaycanın memarlıq abidələrini, Alban-xristian, türk məbədlərini təhrif olunmuş şəkildə təqdim edirlər.**

"İki sahil"in məlumatına görə, bu fikri AZƏRTAC-a açıqlamasında memarlıq üzrə fəlsəfə doktoru, dosent Rahibə Əliyeva bildirib. O qeyd edib ki, dünyada ilk insan məskənlərindən olan





Azıx, Tağlar mağaraları ermənilər tərəfindən hərbi sursat anbarlarına çevrilib. Alban-xristian, türk məbədləri olan Yelisey, Həsənriz, Alban hökmdarı III Vaçaqanın məzarı və digər abidələrdə alban əlifbası ilə olan yazılar silinib və onların yerinə ermənicə sözlər yazılıb.

Ermənilər İslam abidələrinə sahib çıxa bilmədiklərindən ya dağıdır, izini silir və ya onları başqa ölkələrin memarlığı kimi qələmə verir, özlərini "tolerant" kimi göstərmək üçün həmin dövlətlərə yalvararaq "bərpa" etdirirlər. Bura qəbirüstü abidələr, türbələr (İrəvanda Əmir Səəd türbəsi) və məscidlər (Şuşada Yuxarı Gövhər Ağa, İrəvanda Göy məscid) daxildir.

Ermənilərin abidələrimizi özününküləşdirərək dünyaya təqdim etməsinə baxmayaraq, onların üzərindən azərbaycanlıların ustad izlərini silə bilməzlər. Öz mədəniyyətini, etnoqrafiyasını, adət-ənənələrini, tikinti texnikasını daşlar üzərində "möhürünü" vuran ustaların sənəti memarlıq incilərimizi dünya sivilizasiyasında fərqləndirir. Qarabağ abidələri Azərbaycanın zəngin mədəni irsinin bir qoludur.

İlkin insan məskənlərindən olan Azıx, Tağlar mağara düşərgələrindən başlayaraq, XX əsrin əvvəllərinə kimi böyük bir xronoloji dövrü keçən Qarabağ memarlığı sovet dövründə bağpark və xatirə abidələri ilə zənginləşdirilib. Xatırladaq ki, Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri bu günə kimi təcavüzə məruz qalıb.

Qarabağ bölgəsində Paleolit dövrünün Quruçay mədəniyyətinin, Tunc və Dəmir dövrlərində mövcud olmuş Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətinin izləri aşkarlanıb. Qarabağın aran və dağlıq ərazilərində aşkarlanan Antik dövrə aid daş qutular nadir mədəniyyət nümunələridir.

Alban memarlığını özündə əks etdirən IV-XVI əsrlərə aid xristian məbədlərinə Xocalı, Xocavənd, Bərdə, Ağcabədi, Tərtər, Ağdərə ərazisində, habelə Laçın və Kəlbəcərdə rast gəlinib. Onların arasında Laçın rayonunda yerləşən Ağoğlan, Kəlbəcər rayonundakı Xudavəng, Xocavənd rayonundakı Amaras monastırları, Ağdərə rayonunda Müqəddəs Yelisey məbəd kompleksini, Gəncəsər monastırını və digərlərini göstərmək olar.

İslam dininin Albaniya-Azərbaycan ərazisində qəbul edilməsi ilə ölkədə məscidlər, mədrəsələr və digər islam tikililəri inşa olunub. Bununla yanaşı, xristian məbədlərinin fəaliyyəti davam etdirilir və yeniləri inşa olunurdu. İslam mədəniyyəti dövrünü Qarabağın çiçəklənmə dövrü adlandırmaq olar. Bu dövrdə ustad memarlar "Qarabaği", "Bərdəi" təxəllüsü ilə tanınaraq bir sıra gözəl, nadir memarlıq əsərlərinin müəllifinə çevriliblər. Ağdərə, Kəlbəcər, Xocavənd, Şuşa, Xankəndi, Tərtər, Füzuli, Cəbrayıl, Ağcabədi, Laçın, Qubadlı, Zəngilanın inkişafı məhz İslam dövrünə təsadüf edir. Bu şəhərlərin memarlıq üslubunda milli-mənəvi və ideoloji təfəkkür tərzi öz əksini tapıb.





Füzuli bölgəsində Şeyx Yaqub türbəsi, Cümə, Hacı Ələsgər məscidləri, Mir Əli, Şeyx İbrahim, Əhməd Sultan, Cəlal türbələri, Qarğabazar karvansarası, Hacı Ələkbər məscidi, Horadiz qəsəbəsində Cümə məscidi, habelə Əsgəran qalası, Cəbrayıl rayonunda Qız qalası, Xudafərin körpüləri, Ağdamın Xaçın Dərbəndli kəndi yaxınlığında 12 künclü türbə, Ağdam Cümə, Şahbulaq məscidləri, Qutlu Xacə Musa oğlu türbəsi, Abdal-Gülablı kəndində hamam, Bərdə şəhərindəki Tərtər çayı üzərində 12 tağlı körpü, Bərdə türbəsi, qoşa minarəli "İmamzadə" məscid kompleksi, Bəhmən Mirzə türbəsi, Qubadlıda Laləzar körpüsü, Dəmirçilər kəndindəki türbələr, Zəngilanda Xacə Yəhya türbəsi, Laçın ərazisində körpülər, Məlik Əjdər, Qarasaqqal, Soltan baba, Şeyx Əhməd, Sarı Aşıq, Cicimli kəndindəki türbələr, Quşçu kəndindəki Uşaq qalası, Böyük bulaq abidəsi, Həmzə Sultan sarayı da tariximiz üçün qiymətli maddi mədəniyyət nümunələridir.

XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq, Pənahabad (Şuşa) qalaları salınıb və həmin qalalarda bazar, karvansara, məscid, hamam və s. inşa olunub, yeni yaşayış məntəqələri, şəhərlər yaranıb. Ağdamda Pənah xana məxsus imarət və nəslinə aid türbələr tikilib.

XVIII əsrdə Azərbaycan şəhərsalma sənətinin ən mühüm özəlliyi ölkənin siyasi-ictimai durumu ilə bağlı xanlıq mərkəzlərinin formalaşmasıdır. Qarabağ xanlığının paytaxtı Şuşa şəhəri salındığı yerin qeyri-adi təbiəti və strateji göstəriciləri ilə seçilir.

Şuşa şəhəri 1988-ci ildə Azərbaycan Respublikasının Dövlət Tarix-Memarlıq Qoruğu elan edilib. Hazırda erməni işğalı altında olan şəhərin tarixi siması bir-sıra dağıdıcı təsirlərə məruz qalıb.

Bu gün müzəffər ordumuzun işğaldan azad etdiyi Qarabağ ərazilərində erməni vandalları tərəfindən dağıdılmış "gözü yaşlı" abidələrimiz bizi gözləyir. Onlar dövlətimizin dəstəyi, bərpaçı memarlar-mütəxəssislərin böyük səyi ilə yenidən həyata qaytarılacaq və dəyərli irsimiz dünyaya təqdim olunmaqla bölgədə turizm inkişaf etdiriləcək.